# Bəşəriyyəti qorxudan fəlakət: Zəlzələlər

**Rahat, isti, işıqlı bir ev...doğmaların ətrafında...Deyə-gülə şam edirsiniz, hər şey gözəl, hər şey ürəyincə...Dünya yaşamağa dəyər-dediyiniz anda... qəflətən dünya silkələnir, torpaq titrəyir, sanki güclü bir əl ev-eşik qarışıq səni o tərəf, bu tərəfə yelləyir. Bir anın, uzaq başı 3-4 saniyənin ərzində nə rahat evindən, nə doğmalarından, nə xoşbəxtliyindən əsər-əlamət qalmır. Hamısı məhv oldu... Cünki olacağını- gələcəyini bilməyəcəyin bir fəlakətin tam icindəsən. O dəhşətin adı zəlzələdir!**

### *Nədir zəlzələ?*

Zəlzələ Yerdə baş verən dinamik proseslər nəticəsində yaranır. Planetin daxilindəki enerji tədricən toplanır və hər hansı yerdə süxurların müqavimət qabiliyyətindən artıq olduqda, onların parçalanması və ya çatlaması ilə müşayiət olunur.

Bu, hər tərəfə yayılan və öz yolu qarşısındakı maddələri rəqsi hərəkətə gətirən elastik dalğalar yaradır. Süxurların ilk parçalanma yeri zəlzələnin mərkəzi (episentri) sayılır. Mərkəzdə titrəyiş həmişə qısa müddətli olur və sonra ətrafa yayılır.

Dünyada il ərzində 500 mindən çox zəlzələ baş verir, lakin onların çoxu zəif, nisbətən az qismi dağıdıcı olur. Hələlik zəlzələlərin yerini və vaxtını qabaqcadan dəqiq müəyyən etmək mümkün deyil, lakin yerin seysmik sahələrini müəyyən edib, çox böyük ehtimalla zəlzələlər baş verə biləcək əraziləri göstərmək olar.

Azərbaycan Milli Elmlər Akademiyası nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzinin direktoru Qurban Yetirmişlidə zəlzələni əvvəlcədən nə vaxt və hansı gücdə olacağını təyin etməyin mümkünsüz olduğunu deyib: "Ümumiyyətlə, dünyanın heç yerində zəlzələni əvvəlcədən bilmək qeyri-mümkündür. Zəlzələni əvvəlcədən bilmək məsələsi hələ ki həll olunmayıb. Çətin ki, yaxın vaxtlarda da bu həllini tapsın. Çünki bu, yerin dərinliyində saniyələrlə gedən bir prosesdir. Onun hansı güclə, hansı gün baş verəcəyini təyin etmək mümkünsüzdür".



### *Azərbaycanda zəlzələ*

Ölkəmiz dağ və dağətəyi əraziləri də seysmik zonaya aiddir. Azərbaycanın tarixində ən dəhşətli zəlzələlər Gəncə yaxınlığında 1139-cu ildə 11 bal gücündə baş verib. Həmin dövrün tarixi yazılarına əsasən bu zəlzələdə 230 min insan həyatını itirib. Güclü təkan nəticəsində Kəpəz dağı uçaraq Ağsu çayının qarşısını kəsib və Göygöl, Maralgöl, Ceyrangöl, Ördəkgöl, Zalugölü, Ağgöl, Qaragöl və Şamlıgöl yaranıb. Zələlərin ən intensiv və dağıdıcı şəhərlərimizdən biri isə Şamaxıdır .

### *Şamaxı zəlzələləri*

**1. 1669-cu il -5.7 bal gücündə. 7 min insan dünyasını dəyişib.**

**2. 1667-cil il- 6.9 bal gücündə. 80 min insan dünyasını dəyişib. Bu zəlzələ Azərbaycan tarixində ən dəhştli zəlzələ kimi qeyd edilir.**

**3. 1828-ci il -5.7 bal gücündə. Ölən və yaralananlar haqda məlumat yoxdur.**

**4. 1859-cu il- 5.9 bal gücündə. Şamaxı şəhəri tamamilə dağılıb. Buna görə, Şamaxı quberniyasının mərkəzi Bakıya köçürülüb və quberniyanın özünün adı da yenilənib - Bakı quberniyası. 100 nəfər dünyasını dəyişib. Məhz bu zəlzələnin gücü o qədər böyük olub ki, həmin hadisədən sonra "Şamaxı batan kimi" ifadəsi yaranıb.**

**5. 1872-ci il- 5.7 bal gücündə. Zəlzələ şəhərdə dağıntılara səbəb olub.**

**6. 1902-ci il -6.9 bal gücündə. Zəlzələ zamanı şəhərin 2.000 nəfərdən artıq sakini həlak olub, minlərlə insan yaralanıb, 20.000 nəfərədək əhali evsiz-eşiksiz qalıb.**

Bakı - 2000-ci il. 6.8 bal gücündə. Onlarla tikili dağılıb, çat verib, 30 nəfər dünyasını dəyişib. Qeyd edək ki, Ağdaş (1999-cu il), Zaqatala (2012-ci il) zəlzələləri insan itkisi olmasa da, 5.6 bal gücündə oldu.

### *Dünyanın qorxunc zəlzələləri*

1950-ci il avqustun 15-də Hindistan və Tibetdə baş vermiş 8,6 bal gücündə zəlzələ 2 min evi, məbəd və məscidi dağıdıb. Azı 1500 adam ölüb.Daha sonra Hindistanda 26 yanvar 2001-ci ildə baş verən 7,9 bal gücündəki zəlzələ 20 mindən çox insanın dünyasını dəyişməsinə səbəb olub. 400 min insanın zəlzələnin dağıdıcı təsiri ilə evsiz qalıb.

Dağıdıcı zəlzələlərin ən cox insan tələfatına səbəb olduğu ölkələrdən biri olan Çin tarix boyunca çox zəlzələ ilə qarşılaşıb. Tangshan şəhərində, 28 iyul 1976-cı ildə səhər saatlarında baş verən 7,8 bal gücündəki zəlzələdə 240 mindən çox insan dünyasını dəyişib. Eyni gün günortadan sonra baş verən 7,1 bal gücündəki şok dağıntılar altında qalan və qurtarılmağı gözləyən onlarla insanın da ölümünə səbəb olub. Daha sonra- Çinin Siçuan əyalətinə aid ngava Tibet-Çianq muxtar əyalətində baş verən 7,8 bal gücündəki zəlzələdə 70 min insan həlak olub. Zəlzələdən sonra ölkədə 3 günlük matəm elan edilib. 1960-cı il mayın 22-də Çilidə- Santiago və Consepsion şəhərlərində baş vermiş zəlzələnin gücü 9,5 bal olub. Zəlzələ nəticəsi böyük dalğalar və vulkan püskürməsi olub. 5000 nəfər ölüb, 2 milyon nəfər evsiz qalıb.Daha sonra -2010-cu il fevralın 27-də Çilidə 8.8 bal gücündə zəlzələ və ardınca sunami 500-dən çox insanı öldürüb. Yüz minlərlə ev, çoxlu sayda yol, körpü dağılıb, fəlakətin vurduğu ziyan 30 milyard dollar təşkil edib.



Meksika da dağıdıcı zəlzələlərin yaşandığı ölkələrdəndir. 10 sentyabr 1985-ci ildə Mexiko və ətrafında baş verən 8,1 bal gücündəki zəlzələdə minlərlə insan həyatını itirib, yüz minlərlə bina dağılıb. Rəsmi olaraq zəlzələdə neçə nəfərin öldüyü deyilməsə də, 6-12 min insanın dünyasını dəyişdiyi ifadə edilib.

1988-ci ildə SSRİ-nin tərkibində olan Ermənistanın Spitak bölgəsində dağıdıcı zəlzələ baş verib. 7 dekabr 1988-ci ildə baş verən 7,2 bal gücündəki zəlzələdə 20 min insan dünyasını dəyişib.

1999-cu ildəTürkiyədə(İzmit) baş verən zəlzələnin gətirdiyi fəlakətlər də böyük olub.

Avqustun 17-də baş verən 7,6 bal gücündə zəlzələ zamanı rəsmi məlumatlara görə, 17 217 adam öldü, 43 959 nəfər yaralandı, 500 min nəfər isə evsiz-eşiksiz qaldı.

Amma əksər mənbələr zəlzələ nəticəsində azı 40 min nəfərin dünyasını dəyişdiyi və bir o qədərinin də yaralandığı qənaətindədir. Bundan əlavə, 120 minbinatamamilə dağılmışdı və onları yenidən bərpa etmək məqsədəuyğun hesab edilmədi. 50 min bina isə ciddi şəkildə zədələnmişdi. 2000 bina isə çökmüşdü.ZəlzələnəticəsindəTürkiyəyə 25 milyard dollar zərər dəydi.

2004-cü il dekabrın 26-da İndoneziyada - Sumatra adasında 9.1 bal gücündə zəlzələ baş verib.

Bunun ardınca yaranan sunami İndoneziya, Tailand, Hindistan və Şri-Lankada ümumilikdə 226 min insanın həyatına son qoyub. Daha sonra-2005-ci il martın 28-də Sumatra adasında 8,7 bal gücündə baş vermiş zəlzələnin qurbanları 1300 nəfər olub.



### *2005-ci ildə*

**Pakistanın Muzaffarabad şəhəri yaxınlığında baş verən 7,6 bal gücündəki zəlzələ 75 min insanın həyatını itirməsinə səbəb oldu.**

**2011-ci ildə, martın 11-də Yaponiyada 8.9 bal gücündə zəlzələ baş verib. Zəlzələ və ardınca sunami nəticəsində yüzlərlə adamın öldüyü deyilir, atom-elektrik stansiyasında partlayış baş verib. Filippin, Tayvan, Peru, Kolumbiya və başqa ölkələrdə sunami xəbərdarlığı elan edilib.**

**Ötən həftəsonu Türkiyənin Elazığ və Malatya şəhərində baş verən 6.8 bal gücündəki zəlzələbelə qorxunc zəlzələlərdən biridir.**

**Allah ölkəmizi və dünyamızı qəfil fəlakətlərdən qorusun!**

**Əntiqə Rəşid**